**Bakı Xəbər**. - 2024. - 11 sentyabr. - № 162. - S. 8.

# Dini tolerantlıq - bütün bölgələrə, bütün dinlərə, bütün ibadətgahlara eyni yanaşma...

**Vidadi Ordahallı**

**Tolerantlıq nümunəsi olan Azərbaycanda multikultural dəyərlərə və ənənələrə həssaslıqla, hörmətlə yanaşılır. Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycan, eyni zamanda, millətlərarası və dinlərarası münasibətlərin inkişaf etdirilməsi baxımından da nümunəvi ölkə kimi xarakterizə olunur.**

**Azərbaycanda hər zaman tolerantlıq mövcud olub**

Bütün bunlar səbəbsiz deyil. Belə ki, ölkəmizdə milli və dini müxtəliflik bəzi dövlətlərdən fərqli olaraq insanlar arasında fərq yaradan amil kimi deyil, əksinə, tolerantlıq mühitinin əsas komponentləri olaraq çıxış edir. Təsadüfi deyil ki, ölkəmizdə müxtəlif xalqların nümayəndələri bir ailə kimi yaşayırlar. Birgəyaşayışın, dini dözümlülüyün, sülhün qarantı olan multikulturalizm Azərbaycanda qədim köklərə malikdir. Milli dəyərlərimizlə həmahəng olan tolerantlıq bu gün digər xalq və millətlər, müxtəlif dövlətlər üçün nümunəyə çevrilib. Başqasının mədəniyyətinə, dünyagörüşünə, dini inancına hörmət etmək, anlayış göstərmək yüksək insani keyfiyyətdir. Bu həm də öz dəyərlərini tanıtmağın, təbliğ etməyin bir yoludur. Tarixən bu günümüzə qədər Azərbaycanda hər zaman tolerantlıq mövcud olub. Ölkəmizdə inanclarına, adət-ənənələrinə, dininə, irqinə, milli mənsubiyyətinə görə heç kəsə fərq qoyulmayıb. Hər bir vətəndaşa eyni şəkildə yanaşılıb. Dövlətimiz milli və bəşəri dəyərlərə hər zaman böyük hörmət bəsləyib. Hər zaman təsdiq edilib ki, insan doğulduğu yurdu, məxsus olduğu milləti sevməsə, başqa xalqlara, ayrı-ayrı insanlara, hətta ölkələrə laqeyd olar. Bu mənada Azərbaycan xalqı həmişə genişürəkli və humanist mövqeli olub. İstər qonşu, istərsə də uzaq ölkələrdə yaşayan millətlərə qayğı və məhəbbətlə yanaşıb.

**Sinaqoqlar, xristian kilsələri də dövlət vəsaiti hesabına yenidən qurulur**

Diqqəti çəkən məqam odur ki, dövlət vəsaiti hesabına nəinki müsəlman ibadətgahları, məscidlər, Azərbaycanda digər dinlərə aid müqəddəs yerlər də təmir olunur, yenidən qurulur. Özü də belə bərabər yanaşma təkcə paytaxtda deyil, bölgələrdəki müqəddəs məkanlara münasibətdə də özünü göstərir. Məsələn, Quba rayonunun Qırmızı qəsəbəsində yerləşən yəhudi sinaqoqları dövlət vəsaiti hesabına təmir edilib. O cümlədən, xristian kilsələr də dövlət vəsaiti hesabına yenidən qurulur. O da məlumdur ki, 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu qələbə qazanaraq işğaldakı torpaqlarımızı azad edib. Artıq bu il zəfərimizin dördüncü ildönümünün qeyd olunmasına sayılı günlər qalıb. Sevindiricidir ki, respublikamızın bütün ərazilərində suverenliyimiz tam bərpa olunub. Artıq bir ildir ki, Xankəndidə bayrağımız dalğalanır. Dörd ildir ki, dağıdılmış şəhərlərimiz bərpa edilir. Dövlətimiz dini abidələrin bərpasına, tamamilə dağıdılmış abidələrin yenidən tikilməsinə xüsusi qayğı göstərir. Şuşada, Ağdamda, Füzulidə, Zəngilanda və işğaldan azad edilən digər rayonlarda məscidlər, digər dini ibadətgahlar bərpa edilir. Dövlətimizin səyi nəticəsində bütün bu abidələr bərpa olunur. Şuşada Yuxarı Gövhərağa məcsidi, Aşağı Gövhərağa məscidi, Saatlı məscidi bərpa edilib. Zəngilanda da dağıdılan məscid yenidən tikilir. Laçında, Suqovuşanda, Hadrutda məscidlər tikilir. Bir sözlə, işğaldan azad edilən bütün ərazilərimizdə məscidlər əsasən dövlət vəsaiti hesabına inşa olunur. Bu, dövlətin mənəvi dəyərlərə verdiyi önəmi göstərir. Bir daha qeyd edək ki, dövlət bu qayğını yalnız İslam abidələrində deyil, həm də xristian abidələrinə - Qafqaz-alban irsinə də göstərir. Çünki ermənilər təkcə müsəlman abidələrnə deyil, eyni zamanda xristian abidələrinə - Qafqaz Albaniyası dönəminə məxsus abidələrə də zərər vurublar. Ermənilər özlərinə xristian desələr də, xristian abidələrinə də hörmətlə davranmayıblar. Onlar xristian abidələrinə qarşı da vandalizm həyata keçiriblər. Ona görə də məscidlərimizlə yanaşı, Qafqaz-alban irsi də dövlət qayğısı sayəsində bərpa olunmaqdadır.

**Bütün bunlar din-dövlət münasibətlərinin necə yüksək səviyyədə olmasının göstəricisidir**

Sözügedən məsələ ilə bağlı fikirlərini “Bakı-Xəbər”lə bölüşən şərqşünas Seyid Camal Əzimbəyli hesab edir ki, bütün bunlar tolerantlığın, din-dövlət münasibətlərinin necə yüksək səviyyədə olmasının göstəricisidir: “Həqiqətəndə bu məsələdə Azərbaycan nümunəvi ölkələrdən biridir. Son 30 ildə din-dövlət münasibətlərində ciddi inkişaf var. Xüsusən də ölkənin iqtisadi imkanları genişləndikcə, dini abidələrin, məscidlərin bərpasına və təmir edilməsinə büdcədən daha çox vəsait ayrılır. Ölkəmizdə yaşayanların böyük əksəriyyəti müsəlman olsa da, bu bəsələdə bərabər yanaşma var. Yəni dövlət vəsaiti hesabına məscidlərlə yanaşı, kilsələr, sinaqoqlar təmir edilir. Hər il Prezidentin Ehtiyat Fondundan bütün dini icmalara birdəfəlik yardımlar edilir. Bundan başqa, Şuşada məscidlərlə yanaşı, məşhur Qazançı kisəsinin də təmiri həyata keçirilir. Bununla belə, qədin Alban abidələrinin, məbədlərin mühafizə olunmasına, onların restavrasiyasına

xüsusi diqqət göstərilir. Ona görə ki, Azərbaycanda dini tolerantlıq çox yüksək səviyyədədir. Bu kimi məsələlərdə əsla hansısa ayrı-seçkilikdən söhbət gedə bilməz. Nə dövlət səviyyəsində, nə də ictimai münasibətlər zəminində bir ayrı-seçkilik yoxdur. Digər tərəfdən, 2014-cü ilin mayında Azərbaycanda dini dözümlülük ənənələrinin daha da möhkəmləndirilməsi, milli və dini azlıqlara dövlət qayğısının artırılması məqsədilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılıb. Sözügedən mərkəzin fəaliyyəti Azərbaycan həqiqətlərinin və multikulturalizmin dünyada təbliğində olduqca mühüm əhəmiyyətə malikdir. O baxımdan bütün bunlar bizim milli sərvətimizdir”.